İQTİSADİ ELMLƏR

**UOT 338.48**

# BEYNƏLXALQ TURİZM QLOBAL ƏMƏKDAŞLIQ VƏ DAYANIQLI İNKİŞAFIN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ

**Elşən QASIMLI***

Məqalə redaksiyaya daxil olmuşdur: 28 dekabr 2024; çapa qəbul edilmişdir: 24 yanvar 2025; online-da çap edilmişdir: 15 may 2025.
Received: 28th of December, 2024; accepted: 24th of January, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *beynəlxalq turizm, inkişaf, qlobal əməkdaşlıq, iqtisadiyyat*

## Giriş

Turizm xalqlar arasında qarşılıqlı razılıq və anlaşmanı gücləndirən yumşaq güc vasitəsidir. Turizm vasitəsilə insanlar müxtəlif mədəniyyətləri yaşaya, onları qiymətləndirə və xalqlararası diplomatiya üçün yeni kanallar aça bilərlər. Bir xalqın adət-ənənələrini, tarixini və həyat tərzini öyrənən turistlər mövcud qərəzləri aradan qaldıra, stereotipləri sındıra bilirlər. Bu mədəni mübadilə ev sahibi icmalara da daha geniş baxış bucaqları qazandırır, şəffaflığı və qlobal düşüncə tərzini təşviq edir.

Məsələn, YUNESKO-nun Ümumdünya İrs Siyahısında yer alan mədəni sərvətlərin qorunmasında beynəlxalq əməkdaşlıq mühüm rol oynayır. Milli sərhədlərdən və siyasi bölünmələrdən kənarda aparılan bu səylər mədəni irsin qorunmasına yönəlmiş ortaq fədakarlığın göstəricisidir.

Turizmin beynəlxalq əməkdaşlıq əlaqələrini necə inkişaf etdirə biləcəyinə yaxşı bir nümunə Danimarka, Almaniya və Niderland arasında paylaşılan Vadden dənizidir. Bu bölgənin birgə qorunması məqsədilə yaradılan Üçtərəfli Vadden Dəniz Əməkdaşlığı (TWSC), ölkələrin ümumi ekoloji resursları davamlı şəkildə qorumaq və idarə etmək üçün əməkdaşlıq etdiyi uğurlu bir ekoloji diplomatiya nümunəsidir.

TWSC 1982-ci ildə Vadden dənizinin təbii bütövlüyünü qorumaq məqsədilə təsis olunub. Bu əməkdaşlıq biomüxtəlifliyin qorunması, davamlı inkişaf və ətraf mühitin mühafizəsi sahələrində transsərhəd koordinasiya olunmuş siyasətləri nəzərdə tutur. Əməkdaşlıq sonuncu dəfə 2010-cu ildə yenilənmiş və "Vadden dənizinin mühafizəsi üzrə Birgə Bəyannamə" ilə təsbit olunmuşdur. Bu üçtərəfli əməkdaşlıq:

- Bu əməkdaşlıq çərçivəsində Vadden dənizi:
- Vahid siyasət və idarəetmə vasitəsilə bir ekoloji sistem kimi qorunur;
- Ekoloji maarifləndirmə yolu ilə ictimaiyyəti Vadden dənizinin mühafizəsinə cəlb edir;
- Təbii və mədəni dəyərlər baxımından regionun dayanıqlı inkişafını təmin edir;
- Digər dəniz sahələri və regionları ilə idarəetmə və mühafizə sahəsində beynəlxalq əməkdaşlıqlar həyata keçirir.

Uğurlu əməkdaşlıq modelinə baxmayaraq, bu üçtərəfli təşəbbüs qarşısında müəyyən

* *doktorant, Azərbaycan Turizm və menecment Universiteti*
*e-mail:* elshen99919@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.1037**

problemlər də mövcuddur. İqlim dəyişikliyi nəticəsində yaranan çətinliklər, həddindən artıq balıq ovu və intensiv gəmiçilik fəaliyyəti, dənizdən enerji hasilatı zamanı yaranan çirklənmə kimi insan mənşəli təsirlər, eləcə də kənd təsərrüfatından axan qida maddələri ətraf mühit üçün ciddi narahatlıq doğurur.

***Gələcəyə baxışla Üçtərəfli Vadden Dəniz Əməkdaşlığı aşağıdakı məqsədləri hədəfləyir:***

İqlim dözümlülüyünün gücləndirilməsi: Dayanıqlı ekosistemin qorunması vasitəsilə iqlim dəyişikliklərinin təsirini azaltmaq və bu dəyişikliklərə uyğunlaşmaq üçün strateji yanaşmalar hazırlamaq;

İctimai maarifləndirmənin artırılması: Təhsil və ictimai fərqindəliyin artırılmasına yönəlmiş proqramlar vasitəsilə Vadden dənizinin əhəmiyyətini daha geniş kütlələrə çatdırmaq;

Beynəlxalq əməkdaşlıqların genişləndirilməsi: Qlobal təşkilatlarla tərəfdaşlıq quraraq daha səmərəli idarəetmə təcrübələri əldə etmək və tətbiq etmək;

Davamlı inkişafın təşviqi: Ətraf mühitin mühafizəsini prioritet olaraq saxlamaqla yanaşı, turizm, balıqçılıq və digər iqtisadi fəaliyyətlərin ekoloji cəhətdən davamlı üsullarla həyata keçirilməsini dəstəkləmək.

Yuxarıda sadalanan məqamları ümumiləşdirmək olar ki, Vadden Dəniz Əməkdaşlığı xalqların ortaq təbii irs nümunələrini birgə qorumağa yönəlmiş uğurlu əməkdaşlıq modelidir [10].

## 1. Beynəlxalq Əməkdaşlıqlar və Turizmin Rolu

Daha sülhsevər və bir-birini anlayan qlobal cəmiyyətin qurulması, müxtəlif mədəniyyət və insanları bir araya gətirmək baxımından turizm əvəzolunmaz vasitədir. Qlobal miqyasda turizmin yaratdığı bu dinamika harmoniya, əməkdaşlıq və qarşılıqlı hörmətin inkişafı üçün vacib rol oynayır. Turizm vasitəsilə insanlar arasında anlayış dərinləşir, paylaşılan təcrübələr artır və mədəni fərqliliklərə körpü salınır. Nəticə etibarilə, beynəlxalq əlaqələr möhkəmlənir.

Turizm həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ekoloji, sosial və iqtisadi baxımdan davamlılığa töhfə verir. İnkişaf etməkdə olan ölkələr üçün beynəlxalq turizm mühüm valyuta mənbəyi olmaqla yanaşı, yerli iqtisadiyyatları dəstəkləyir və inkişafı sürətləndirir. Məsələn, Maldiv, Seyşel və Baham adalarında turizm gəlirləri ixrac olunan məhsulların ümumi dəyərindən daha yüksəkdir ki, bu da sektorun iqtisadi əhəmiyyətini bir daha sübut edir. Eyni zamanda, turizm gəlirlərinin ixracın 25-60%-ni təşkil etdiyi Albaniya, Türkiyə və Mərakeş kimi ölkələrdə də bu sahə iqtisadi dayanıqlığın əsas dayağı kimi çıxış edir.

Turizmin bu strateji əhəmiyyəti beynəlxalq ticarət və əməkdaşlığı stimullaşdırır. Turizm sahəsində uğurlu təcrübələrin yaradılması və davam etdirilməsi məqsədilə müxtəlif ölkələr birlikdə işləyir. Dayanıqlı inkişaf təcrübələri üçün zəruri olan maddi resurslar və ekosistem xidmətləri baxımından kəndlər də turizmin təşviqində əhəmiyyətli rol oynayır. Su ehtiyatları, kənd təsərrüfatı məhsulları və emissiya tullantılarının idarə edilməsi kimi xidmətlər iqlim dəyişikliyi ilə mübarizə və biomüxtəlifliyin qorunması baxımından həyati əhəmiyyət daşıyır.

Qlobal turizm sektoru, transsərhəd ekoloji nəzarət və koordinasiyanı təşviq etməklə bu resursların qorunmasında beynəlxalq əməkdaşlığın güclənməsinə şərait yaradır [3, s. 242-244].

Bu çərçivədə Kosta Rika uğurlu bir nümunə kimi çıxış edir. Burada kənd icmaları ekoturizmlə inteqrasiya olunaraq inkişaf etdirilir. Qorunan ərazilər və milli parklar vasitəsilə əldə edilən turizm gəlirləri həm təbiətin qorunmasına, həm də yerli əhalinin dolanışığına dəstək verir. Yerli icmalarla hökumət arasında qurulan bu əməkdaşlıq kənd ərazilərinin

davamlı inkişaf üçün necə əsas rol oynaya biləcəyini açıq şəkildə nümayiş etdirir [5].

Qlobal miqyasda hökumətlər, özəl sektor nümayəndələri və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq kənd ekoturizmi sahəsində həyata keçirilən layihələrin uğur dərəcəsini əhəmiyyətli dərəcədə artırmışdır. Bu istiqamətdə diqqətəlayiq nümunələrdən biri Butanın "yüksək dəyər, az təsir" prinsipi ilə qurulan turizm siyasəti, digəri isə Avstraliyada yerləşən Böyük Sədd Rifinin mühafizəsinə yönəlmiş səylərdir. Hər iki təşəbbüs davamlılığı əsas prioritet olaraq qəbul etməklə yanaşı, kənd icmalarını da bu prosesə fəal şəkildə cəlb edir [5].

Polşada tətbiq olunan kənd turizmi modeli isə davamlı inkişaf prinsiplərinə əsaslanaraq həm təbii, həm də mədəni sərvətlərin qorunmasını təmin edir. Bu strategiya yerli əhaliyə iqtisadi imkanlardan faydalanmaq imkanı yaratmaqla yanaşı, landşaftın qorunmasına da xüsusi diqqət yetirir. Ekoloji resurslardan istifadə zamanı rekreasiya və təhsil dəyərləri arasında tarazlıq qorunur, yerli maraqlı tərəflər isə bu resursların idarə edilməsinə birbaşa cəlb olunurlar.

Bu nümunələr göstərir ki, kənd əraziləri həm yerli, həm də beynəlxalq maraqlı tərəflər arasında əməkdaşlıq çərçivəsində iqtisadi inkişafla ətraf mühitin mühafizəsini birləşdirən mühüm platformalara çevrilə bilər.

Turizm sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətini göstərən bir sıra proqram və müqavilələrə də nəzər salmaq faydalıdır:

*Qlobal "Mavi Bayraq" Sertifikatlaşdırma Proqramı:* Bu beynəlxalq proqram çimərliklər, marinalar və dayanıqlı qayıq turizmi operatorları üçün ciddi ekoloji və təhlükəsizlik standartlarına cavab verən istiqamətləri sertifikatlaşdırır. Danimarka, İspaniya və Cənubi Afrika kimi ölkələrdə "Mavi Bayraq"a sahib bölgələr ətraf mühitin mühafizəsinə sadiqliyi, suyun keyfiyyəti və davamlı idarəetmə praktikasını nümayiş etdirirlər [8].

*Antarktika – "Dünya daxilində dünya" modeli:* Qlobal əməkdaşlığın ən bariz nümunələrindən biri kimi Antarktika göstərilə bilər. Burada 50-dən çox ölkədən olan alimlər, hüquqşünaslar, logistika mütəxəssisləri və turizm sektoru nümayəndələri ortaq məqsədlər uğrunda əməkdaşlıq edir. Antarktika turizmi, 1957-1958-ci illərdə Beynəlxalq Geofizika İli (IGY) çərçivəsində başlanan elmi əməkdaşlıq ruhunu davam etdirərək siyasi sərhədləri aşan birgə fəaliyyəti təşviq etmişdir. Ətraf mühitin qorunması və ərazinin yalnız dinc məqsədlərlə istifadəsini təmin edən normativ çərçivə 1959-cu il *Antarktika Müqaviləsi Sistemi (ATS)* vasitəsilə müəyyən edilmişdir. Bu müqavilə siyasi və elmi əməkdaşlıq, ətraf mühitin mühafizəsi və beynəlxalq hüquq normalarının tətbiqi baxımından strateji əhəmiyyət daşıyır.

Turizm sektoru son 40 il ərzində *Antarktida Tur Operatorlarının Beynəlxalq Assosiasiyası (IAATO)* tərəfindən rəhbərlik edilən standartların yaradılması ilə əhəmiyyətli dəyişikliklərə uğramışdır. Bu standartlar, əsasən, ətraf mühitin qorunması və turizm sahəsində davamlı təcrübələrin təmin olunmasına yönəlmişdir [3, s. 242–244].

1960-cı illərin əvvəllərindən etibarən Antarktidada yeni və əvvəllər proqnozlaşdırılmayan bir fenomen – turizm inkişaf etməyə başlamışdır. Antarktika Müqaviləsi hazırlanarkən belə bir tendensiyanın yaranacağı və bu qədər sürətlə böyüyəcəyi, müqavilə tərəfləri tərəfindən gözlənilmirdi. Müqayisə üçün qeyd etmək olar ki, əvvəlki illərlə müqayisədə Antarktidaya gələn turistlərin sayı son dövrlərdə əhəmiyyətli dərəcədə artmış və artıq 40.000 nəfəri keçmişdir.

Bu sənaye, 1970-ci illərdə sadəcə bir kommersiya gəmisi – *MS Lindblad Explorer* ilə başlamışdısa da, bu gün Antarktikaya səfərlər 6 nəfərlik kiçik yaxtalardan tutmuş, 3000 nəfərlik nəhəng kruiz gəmilərinə qədər müxtəlif ölçülü vasitələrlə həyata keçirilir [3, s. 242]. Bu, həm logistik, həm ekoloji, həm də diplomatik cəhətdən beynəlxalq səviyyədə koordinasiyanı zəruri edən unikal bir nümunədir.

**2. Viza sisteminin liberallaşdırılması**

Beynəlxalq turizmin artımında mühüm rol oynayan amillərdən biri də viza sisteminin liberallaşdırılmasıdır. Səyahət prosedurlarının sadələşdirilməsi, viza tələblərinin aradan qaldırılması və ya daha əlçatan formada təqdim edilməsi turist axınına birbaşa müsbət təsir göstərir.

Viza sisteminin liberallaşdırılması bir sıra üstünlüklər təmin edə bilər:

İqtisadi artım baxımından, turizm gəlirlərini artırmaqla yanaşı, biznes sahəsində investisiya axınını da stimullaşdırır.

Mədəniyyətlərarası dialoqun və millətlərarası anlaşmanın təşviqi ilə mədəni mübadilə gücləndirilir.

Diplomatik əlaqələrin inkişafı, ölkələr arasında etimadı möhkəmləndirərək yeni əməkdaşlıqlara yol açır.

Viza rejiminin liberallaşdırılması sahəsində ən uğurlu qlobal əməkdaşlıq nümunələrindən biri Şengen viza sistemidir. Şengen zonası Avropa inteqrasiyasının əsas nailiyyətlərindən biri olaraq, 1985-ci ildə beş Avropa İttifaqı ölkəsi – Fransa, Almaniya, Niderland, Belçika və Lüksemburq tərəfindən başlanmışdır. Zamanla bu layihə dünyanın ən böyük sərbəst səyahət regionuna çevrilmişdir.

Bu gün Şengen zonası:

- Təxminən 420 milyon əhalini,
- 4 milyon kvadrat kilometrdən çox ərazini,
- 29 ölkəni əhatə edir.

Bu sistem sərhədsiz səyahətə imkan yaratmaqla yanaşı, iqtisadi, sosial və mədəni əlaqələri gücləndirərək, regional əməkdaşlığa və qlobal mobilliyə töhfə verir.

Hazırda Avropa İttifaqının (Aİ) 27 üzv dövlətindən 25-i, həmçinin Avropa Azad Ticarət Assosiasiyasının bütün üzvləri – İslandiya, Lixtenşteyn, İsveçrə və Norveç – Şengen zonasının iştirakçılarıdır [6].

Şengen zonası təkcə səyahət azadlığını təmin etməklə kifayətlənmir, həm də Aİ-nin və onun vahid bazarının təməl sütunlarından biri kimi çıxış edir. Bu zona daxilində səyahət edən şəxslər – istər Aİ vətəndaşları, istərsə də turist, tələbə mübadilə proqramlarının iştirakçısı və ya iş məqsədilə gələn qeyri-Aİ ölkə vətəndaşları – sərhəd nəzarətinə məruz qalmadan üzv ölkələr arasında sərbəst hərəkət edə bilirlər. Aİ, qısa müddətli səyahətlər üçün Şengen zonasına daxil olmaq istəyənlərə vahid viza qaydaları tətbiq edir.

Bu qədər geniş və əlçatan səyahət sisteminin effektiv şəkildə fəaliyyət göstərməsi üçün gücləndirilmiş təhlükəsizlik və hüquq-mühafizə əməkdaşlığı zəruridir. Şengen zonasının əsas məqsədlərindən biri də üzv dövlətlərin gömrük, polis və sərhəd nəzarət orqanları arasında koordinasiyalı əməkdaşlığı təmin edərək əhalini qorumaqdır. Bu baxımdan, Şengen sistemi aşağıdakı imkanları təmin edir:

- Polis bölmələri arasında cinayət təqibi üzrə real vaxt rabitə sistemləri;
- Şübhəli şəxslərin müşahidəsi və qarşılıqlı əməliyyat dəstəyi;
- Hüquq-mühafizə orqanları arasında birbaşa məlumat mübadiləsi.

Şengen zonasına qoşulmaq istəyən ölkələr aşağıdakı şərtləri yerinə yetirməlidirlər:

- Şengen qaydalarının (sərhəd nəzarəti, polis əməkdaşlığı, viza siyasəti, şəxsi məlumatların mühafizəsi və s.) tam tətbiqi;
- Daxili sərhədlərin ləğvindən sonra təhlükəsizliyin təmin olunması və digər üzv dövlətlərlə sıx əməkdaşlıq;
- Şengen vizalarının verilməsinə məsuliyyətin qəbul edilməsi;
- Aİ qanunvericiliyinə və standartlarına uyğunluq;
- Demokratiya, qanunun aliliyi və insan hüquqlarını təmin edən sabit institutların mövcudluğu;
- Şengen İnformasiya Sisteminə (SIS) qoşulmaq və sistemdən effektiv istifadə [6].

- 2020-ci ildə Azərbaycan və Türkiyə arasında səyahət prosedurlarının sadələşdirilməsi iki ölkə arasındakı münasibətləri əhəmiyyətli dərəcədə genişləndirmişdir. 2020-ci il 10 dekabr tarixində hər iki ölkənin xarici işlər nazirləri şəxsiyyət vəsiqəsi ilə qarşılıqlı səyahətə imkan verən protokol imzalamışlar [8]. Bu protokol yalnız iki ölkə vətəndaşlarının turizm əlaqələrini asanlaşdırmaqla kifayətlənməyib, həm də humanitar, mədəni və iqtisadi münasibətlərin möhkəmlənməsinə təkan vermişdir.
- Lakin COVID-19 pandemiyası 2020 və 2021-ci illərdə qlobal turizmə, o cümlədən Azərbaycan turizminə də ciddi təsir göstərmişdir. Məsələn, 2021-ci ilin yanvar-iyul aylarında Azərbaycana gələn turistlərin sayı, 2020-ci ilin eyni dövrü ilə müqayisədə 41% azalmışdır [1, s. 13–14].
- Bununla belə, səyahət məhdudiyyətlərinin aradan qaldırılması ilə bərabər, sadələşdirilmiş səyahət rejimi öz effektivliyini göstərməyə başlamış və iki xalq arasında turizm, sosial və mədəni əlaqələr daha da möhkəmlənmişdir.

Qlobal əməkdaşlıqlar beynəlxalq turizmin inkişafına mühüm töhfələr versə də, bir sıra struktur və təhlükəsizliklə bağlı çətinlikləri də özü ilə gətirir. Səyahət proseslərinin sadələşdirilməsi ölkələr arasında əməkdaşlığı və qarşılıqlı rifahı artırmaqla yanaşı, təhlükəsizlik risklərini**,** sərhəd idarəçiliyi üzrə artan tələbləri və bəzən siyasi müqaviməti də gündəmə gətirir. Bu faydalarla risklərin balanslaşdırılması**,** konflikt mənbəyi deyil, dayanıqlı inkişaf üçün vasitə kimi qəbul edilməlidir.

Viza rejiminin liberallaşdırılması beynəlxalq turizmi asanlaşdırsa da, bəzi önəmli problemlərin ortaya çıxmasına səbəb olmuşdur:

**Təhlükəsizlik riskləri**

Qeyri-qanuni miqrasiya və qalma müddətinin aşılması:

Viza prosedurlarının sadələşdirilməsi, bəzi şəxslərin icazə verilən qalma müddətini aşmasına və bu yolla qeyri-qanuni miqrasiyanın artmasına gətirib çıxara bilər. Məsələn, ABŞ Daxili Təhlükəsizlik Departamentinin 2022-ci il hesabatına əsasən, viza imtina proqramına daxil olmayan ölkələrdən gələnlər arasında çıxış müddətinə əməl etməyənlərin səviyyəsi 6.94% təşkil etmişdir. Bu, viza əməkdaşlığının sui-istifadə olunduğuna dair ciddi göstəricidir [7].

***Cinayət şəbəkələrinin istismarı***

Sadələşdirilmiş viza prosedurları, mütəşəkkil cinayət qrupları üçün əlverişli şərait yarada bilər. İtaliyada baş verən son hadisələr buna nümunədir: qeyri-qanuni immiqrantların qanuni viza vasitəsilə qaçaqmalçılıq yolu ilə ölkəyə daxil olduğu hallar, insan alveri və təhlükəsizliklə bağlı ciddi problemlər doğurmuşdur [9].

Logistika və idarəetmə

Təkmilləşdirilmiş sərhəd nəzarəti tələbləri: artan səyahət həcmini təqib etmək və idarə etmək, vizaları ləğv etmək və ya sadələşdirmək üçün güclü sərhəd idarəetmə sistemləri tələb olunur. Təhlükəsizliyi itirmədən sərhədləri səmərəli şəkildə idarə etmək üçün bu, mürəkkəb texnologiya, daha çox işçi heyəti və hərtərəfli təlim tələb edir [2, s. 123].

Digər ölkələrdən müqavimət

Siyasi təzyiq və ictimai rəy: İmmiqrasiya ilə bağlı mövcud ictimai narazılıqlar səyahət prosesslərinin sadələşməsinə qarşı siyasi müqavimətlə nəticələnə bilər. Bu isə, öz növbəsində dayanıqlı inkişafın konsepsiyalarından biri olan, əməkdaşlıqların həyata keçirilməsini çətinləşdirir. Şengen regionunun ümumi prinsiplərinə təhlükə yaradan fövqəladə hallar baş verərsə, üzv dövlətlərə Şengen sərhəd kodu ilə müəyyən sərhədlərdə məhdudiyyətlər tətbiq edilməsinə icazə verilir. Avropa Komissiyasının təklifi əsasında şura bəzi hallarda bir və ya bir neçə üzv dövlətə sərhəd nəzarətini bərpa etməyi tövsiyə edə bilər. Fövqəladə hallar baş verdikdə şuranın razılığı ilə yoxlamalar aparılmalıdır.

Şengen rejimi daxili sərhədlərin azadlığına əsaslansa da, fövqəladə hallar baş verdikdə üzv dövlətlər müvəqqəti sərhəd nəzarəti tədbirləri görmək hüququna malikdirlər.

• Şengen Sərhəd Məcəlləsinə əsasən**,** müəyyən böhran anlarında, Avropa Komissiyasının tövsiyəsi ilə**,** Şura üzv dövlətlərə sərhəd nəzarətini müvəqqəti bərpa etməyi təklif edə bilər.

• Bu qərarlar, yalnız şuranın razılığı ilə və məhdud müddət üçün icra edilir və məqsədi ümumi təhlükəsizlik və ictimai asayişi qorumaqdır.

**Nəticə və təkliflər**

Yuxarıda qeyd edilənlərə əsasən, bir sıra nəticələr və təkliflər əldə etmək mümkündür. Beynəlxalq səyahətlər ölkələr arasında hörməti təşviq etməklə yanaşı, mədəniyyətlərarası anlaşmanı gücləndirir;

- Yoxsul ölkələrdə turizm yeri iqtisadiyyatlara əhəmiyyətli dərəcədə töhfə verir və yeni iş imkanları yaradır;
- Şengen viza sistemi və Vadden dənizi kimi əməkdaşlıqlar və təşəbbüslər turizmin qlobal əməkdaşlığını və resurs mübadiləsini necə təşfiq etdiyinə gözəl bir nümunədir;
- İcma inkişafı və qorunan əraziləri özündə ehtiva edən Kosta Rikanın eko-turizm proqramları turizmlə əlaqəli gəlirin ətraf mühitin mühafizəsi cəhdlərini necə dəstəklədiyinə aid nümunədir;
- Uğurlu əməkdaşlıqların nəticəsi olaraq, icmalar turistlərin gözləntilərinə uyğun gəldikdə, turizmə hədsiz diqqət yerli mədəniyyətləri zəiflədə bilər;
- Təhlükəsizlik və idarəetmədə çətinliklər bir sıra problemlərə yol açmışdır.

Bütün müsbət aspektləri daha da təkmilləşdirmək və mənfi aspektləri aradan qaldırmaq üçün bir sıra təkliflər irəli sürmək mümkündür:

- Mədəniyyətlərin daha az assimilyasiyaya uğramasını təmin etmək və onları qoruma səylərini gücləndirmək;
- Yerli icmaları qərarların qəbul edilməsinə cəlb etmək və turizmdə əməkdaşlığın üstünlüklərinin şəhər və kənd arasında ədalətli şəkildə bölünməsini təmin etmək;
- Davamlı inkişafa təkan verən infrastruktur investiyaları yaratmaq;
- Beynəlxalq və regional əməkdaşlığı gücləndirmək;
- Şengen sisteminin əhatə dairəsini genişləndirmək və ya dünyada oxşar yeni viza liberallaşdırılması sistemləri yaratmaq;
- Kütləvi turizmdən asılılığı azaltmaq və sağlamlıq və macəra səyahətləri üzrə yeni əməkdaşlıqlar əldə etmək;
- Pandemiya və ya digər fors-major vəziyyətlərə hazırlıqlı olmaq, ehtiyat planlar hazırlamaq;
- Qlobal təhlükəsizliyin təminatı üçün birgə işlər görmək.

## ƏDƏBİYYAT


1. Hüseynov R., Hüseynov R. və Musəyyibov A**.** COVID-19 və Turizm Sektoru: Təsir və İnkişaf Perspektivləri / İqtisadi Konfransın 2.2-ci Sessiyasının materialları. Bakı, 2021, s. 1-14.
2. Hasen F., Pettersson J. Contradictory migration management. “Differentiated security approaches to visa overstay and irregular border crossings in the European Union”, 2021, s.122-124.
3. Landau D. International Cooperation and Management of Tourism: A World within a World. Science Diplomacy, 2011, s. 242-244.
4. Rauschelbach B. Tourism – International Cooperation Perspectives. *Rural 21,* vol. 04,

2011, p. 17-20.

***İnternet resurları:***

5. https://forestry.com/wildlife-management/habitat-conservation/eco-tourism/
6. https://www.consilium.europa.eu/en/policies/schengen-area/#members
7. https://www.dhs.gov/sites/default/files/202307/23_0707_FY22_FY23_CBP_Integrated Entry_Exit_Overstay_Report.pdf?
8. https://www.mfa.gov.tr/no_-318_-turkiye-ile-azerbaycan-vatandaslarinin-ziyaretlerinde-kimlikle-seyahat-imkani-taniyan-protokol-hk.en.mfa?utm
9. https://www.reuters.com/world/europe/italys-meloni-blames-organised-crime-alarming-migrant-visa-fraud-2024-06-04/?utm
10. https://www.waddensea-worldheritage.org/
11. https://yigm.ktb.gov.tr/TR-11570/mavi-bayrak-hakkinda-genel-bilgiler.html

***Резюме***

***Эльшан Гасымлы***

***Международный туризм – как движущая сила глобального сотрудничества и устойчивого развития***

В этой статье рассматривается, как международный туризм может способствовать устойчивому развитию, межкультурному взаимодействию и международному сотрудничеству. Подчеркивается, что туризм является инструментом «мягкой силы», который способствует международному взаимопониманию, позволяя людям знакомиться с разными культурами, преодолевать предрассудки и создавать дипломатические каналы. Используя такие инициативы, как «Сотрудничество по Ваддённскому морю» и «Объекты всемирного наследия ЮНЕСКО», трехстороннее партнерство между Данией, Германией и Нидерландами, созданное для защиты биоразнообразия и экологической целостности региона, он подчеркивает, как туризм может пересекать национальные границы, способствовать пониманию и защите культурного наследия. Эти программы являются хорошими примерами того, как экологическая дипломатия и защита окружающей среды могут быть усилены посредством совместных усилий управления. Кроме того, туризм вносит значительный вклад в экономику, особенно в таких странах, как Марокко и Мальдивы, где доходы превышают экспорт. Он также помогает проектам сельского и экотуризма в Коста-Рике и Польше, которые обеспечивают баланс между местным экономическим развитием и защитой окружающей среды. Однако в статье отмечается, что международный туризм сталкивается с логистическими и политическими проблемами. Усилия по либерализации визового режима, такие как Соглашение о Шенгенской зоне, облегчают путешествия и культурные обмены, но также сталкиваются с такими препятствиями, как проблемы безопасности и политическая оппозиция. Такие примеры, как упрощенные протоколы поездок между Турцией и Азербайджаном, показывают, как упрощенные процедуры могут способствовать развитию трансграничного туризма, одновременно устраняя практические проблемы. В документе также излагаются более широкие последствия, включая необходимость более сильного управления, инновационных визовых систем и надежного международного партнерства для снижения таких рисков, как нелегальная миграция и деградация окружающей среды. Он подчеркивает, что глобальное сотрудничество в сфере туризма имеет жизненно важное значение для достижения долгосрочного устойчивого развития и расширения глобальных культурных и экономических связей.

**Ключевые слова:** *международный туризм, развитие, глобальное сотрудничество, экономика.*

***Summary***

***Elshan Gasimli***

***International Tourism – as a Driving Force of Global Cooperation and Sustainable Development***

This article examines the ways in which international tourism can promote sustainable development, intercultural interaction and international cooperation. It is argued that tourism is a “soft power” tool that

promotes international understanding by enabling people to encounter different cultures, overcome prejudices and create diplomatic channels. It highlights how tourism can transcend national borders, promote understanding and preserve cultural heritage, drawing on initiatives such as the Wadden Sea Partnership, a tripartite partnership between Denmark, Germany and the Netherlands, established to protect the region's biodiversity and ecological integrity, and UNESCO World Heritage Sites. These programmes are good examples of how environmental diplomacy and environmental protection can be strengthened through joint management efforts. Furthermore, tourism makes a significant contribution to the economy, especially in countries where revenues exceed exports, such as Morocco and the Maldives. It also contributes to rural and ecotourism projects, such as Costa Rica and Poland, which strike a balance between local economic development and environmental protection. However, the article notes that international tourism faces logistical and policy challenges. Visa liberalization efforts, such as the Schengen Agreement, facilitate travel and cultural exchange, but also face obstacles such as security concerns and political opposition. Examples such as the simplified travel protocols between Turkey and Azerbaijan show how simplified procedures can boost cross-border tourism while addressing practical concerns. The article also explores the broader implications, including the need for stronger governance, innovative visa systems and strong international partnerships to reduce risks such as irregular migration and environmental degradation. It highlights that global cooperation in tourism is vital to achieving long-term sustainable development and expanding global cultural and economic ties.

**Key words:** *international tourism, development, global cooperation, economy*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.